**Ümumdünya Poçt İttifaqının Ümumi Reqlamentinə əlavə birinci Protokola qoşulmaq haqqında**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası 2008-ci il avqustun 12-də Cenevrə şəhərində imzalanmış Ümumdünya Poçt İttifaqının Ümumi Reqlamentinə əlavə birinci Protokola qoşulsun.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 21 dekabr 2012-ci il
№ 516-IVQ

**Ümumdünya Poçt İttifaqının Ümumi Reqlamentinə əlavə birinci Protokol**

**Mündəricat**


| **Maddə** | | |
|---|---|---|
| **1.** | **(Yeni m. 101 bis)** | **Konqresin funksiyaları** |
| 2. | (Dəyişiklik edilmiş m. 102) | İnzibati Şuranın tərkibi, fəaliyyəti və iclasları |
| 3. | (Dəyişiklik edilmiş m. 103) | İnzibati Şuranın fəaliyyəti haqqında məlumat |
| 4. | (Dəyişiklik edilmiş m. 104) | Poçt İstismarı Şurasının tərkibi, fəaliyyəti və iclasları |
| 5. | (Dəyişiklik edilmiş m. 105) | Poçt İstismarı Şurasının fəaliyyəti haqqında məlumat |
| 6. | (Dəyişiklik edilmiş m. 106) | Məşvərət Komitəsinin tərkibi, fəaliyyəti və iclasları |
| 7. | (Dəyişiklik edilmiş m. 107) | Məşvərət Komitəsinin fəaliyyəti haqqında məlumat |
| 8. | (Dəyişiklik edilmiş m. 110) | Sənədlər, müzakirələr və xidməti yazışmalar üçün istifadə edilən dillər |
| 9. | (Dəyişiklik edilmiş m. 112) | Baş direktorun vəzifələri |
| 10. | (Dəyişiklik edilmiş m. 114) | İttifaq orqanlarının katibliyi |
| 11. | (Dəyişiklik edilmiş m. 116) | Arayışlar. Rəylər. Aktların təfsiri və dəyişdirilməsi haqqında sorğular. Sorğular. Hesablaşmalarda vasitəçilik |
| 12. | (Dəyişiklik edilmiş m. 118) | Beynəlxalq Büronun təqdim etdiyi blanklar |
| 13. | (Dəyişiklik edilmiş m. 119) | Regional ittifaqların aktları və xüsusi sazişlər |
| 14. | (Dəyişiklik edilmiş m. 121) | İttifaqın iki illik fəaliyyəti haqqında hesabat |
| 15. | (Dəyişiklik edilmiş m. 122) | Konqresə təkliflərin təqdim edilməsi proseduru |
| 16. | (Dəyişiklik edilmiş m. 123) | Konqresin qəbul etdiyi qərarlarla əlaqədar yeni reqlamentlərin hazırlanmasına dair təkliflərin Poçt İstismarı Şurasına təqdim edilməsi proseduru |
| 17. | (Dəyişiklik edilmiş m. 124) | İki Konqres arasında təkliflərin təqdim edilməsi proseduru |
| 18. | (Dəyişiklik edilmiş m. 125) | İki Konqres arasında təkliflərə baxılması |
| 19. | (Dəyişiklik edilmiş m. 126) | İki Konqres arasında qəbul edilmiş qərarların nota ilə bildirilməsi |
| 20. | (Dəyişiklik edilmiş m. 128) | İttifaq xərclərinin həddinin müəyyənləşdirilməsi və onların ödənilməsi |
| 21. | (Dəyişiklik edilmiş m. 130) | Üzvlük haqlarının sinifləri |
| 22. | (Dəyişiklik edilmiş m. 131) | Beynəlxalq Büronun göndərdiyi materialların ödənişi |
| 23. | (Dəyişiklik edilmiş m. 132) | Arbitrajın proseduru |
| 24. | (Dəyişiklik edilmiş m. 135) | Ümumdünya Poçt İttifaqının ümumi reqlamentinin dəyişdirilməsi, qüvvəyə minməsi |

| | |
|---|---|
| | və fəaliyyət müddəti |
| 25. | Əlavə protokola qoşulma |
| 26. | Ümumi reqlamentə əlavə birinci protokolun qüvvəyə minməsi və fəaliyyət müddəti |

**Ümumdünya Poçt İttifaqının Ümumi Reqlamentinə əlavə birinci Protokol**

Cenevrədə Konqresdə toplaşan Ümumdünya Poçt İttifaqının üzv ölkələri hökumətlərinin səlahiyyətli nümayəndələri 1964-cü ilin 10 iyul tarixində Vyanada qəbul edilmiş Nizamnamənin 22.2-ci maddəsinə əsasən ümumi razılıqla və bu Nizamnamənin 25.4-cü maddəsinə riayət etmək şərti ilə ümumi reqlamentə aşağıdakı düzəlişləri bəyəndilər.

**Maddə 1**

**(Maddə 101bis)**
**Konqresin funksiyaları**

**1. Üzv ölkələrin, İnzibati Şuranın və Poçt İstismarı Şurasının təkliflərinə uyğun olaraq Konqres aşağıdakıları həyata keçirir:**

**1.1. Nizamnamənin preambulasında və onun 1-ci maddəsində elan olunmuş İttifaqın vəzifə və məqsədinin yerinə yetirilməsi üzrə ümumi siyasəti müəyyənləşdirir;**

**1.2. lazımi halda üzv ölkələrin və şuraların, Nizamnamənin 29-cu maddəsinə və ümumi reqlamentin 122-ci maddəsinə uyğun olaraq Nizamnamədə, ümumi reqlamentdə, Konvensiyada və sazişlərdə düzəlişlərin aparılması üzrə təqdim etdikləri təkliflərə baxır və təsdiq edir;**

**1.3. aktların qüvvəyə minmə tarixini müəyyənləşdirir;**

**1.4. özünün daxili reqlamentini və ona aid olan düzəlişləri təsdiq edir;**

**1.5. ümumi reqlamentin 103, 105 və 107-ci maddələrinin müddəalarına uyğun olaraq, əvvəlki Konqresdən keçən dövr ərzindəki iş haqqında müvafiq surətdə İnzibati Şura, Poçt İstismarı Şurası və Məşvərət Komitəsinin təqdim etdikləri tam hesabatlara baxır;**

**1.6. İttifaqın strateji planını təsdiq edir;**

**1.7. Nizamnamənin 21-ci maddəsinə uyğun olaraq, İttifaqın xərclərinin maksimum məbləğini müəyyənləşdirir;**

**1.8. İnzibati Şura və Poçt İstismarı Şurasının tərkibinə daxil olacaq üzv ölkələri seçir;**

**1.9. Beynəlxalq Büronun baş direktoru və baş direktorun müavinini seçir;**

**1.10. sənədlərin alman, çin, portuqal və rus dillərində icraatı üzrə İttifaqın xərclərinin yuxarı həddini qətnamə ilə müəyyənləşdirir.**

**2. Konqres İttifaqın ali orqanı kimi digər, o cümlədən poçt xidmətlərinə dair məsələlərə baxır.**

**Maddə 2**
**(Dəyişiklik edilmiş maddə 102)**
**İnzibati Şuranın tərkibi, fəaliyyəti və iclasları (Nizamnamə, m. 17)**

1. İnzibati Şura öz vəzifələrini ardıcıl iki Konqresi ayıran müddət ərzində yerinə yetirən qırx bir üzvdən ibarətdir.

2. Sədr postu hüquqi baxımdan Konqresi qəbul edən **üzv ölkəyə** məxsusdur. Qeyd olunan üzv ölkə bu hüquqdan imtina etdikdə o, avtomatik bu şuranın üzvü olur, bununla əlaqədar onun aid olduğu coğrafi qrup bir əlavə yerə malik olur və bu yerə qarşı § 3-də nəzərdə tutulmuş məhdudiyyətlər tətbiq edilmir. Bu halda İnzibati Şuranın sədri Konqresi qəbul edən **üzv ölkənin** daxil olduğu coğrafi qrupdan seçilir.

3. İnzibati Şuranın qalan qırx üzvünü Konqres ədalətli coğrafi bölgü əsasında seçir. Hər Konqresdə üzvlərin ən azı yarısı dəyişdirilir, heç bir üzv ölkə ardıcıl üç Konqreslə seçilə bilməz.

4. İnzibati Şuranın hər bir üzvü poçt sahəsində səlahiyyətli olan öz təmsilçisini təyin edir.

5. İnzibati Şuranın üzvləri öz vəzifələrini pulsuz yerinə yetirirlər. Bu şuranın fəaliyyəti üzrə xərclər İttifaqın hesabına aid edilir.

6. İnzibati Şuranın üzərinə beynəlxalq hüquqi tənzimləmənin aşağıdakı vəzifələri qoyulur:

6.1. Konqresin qərarlarını nəzərə almaqla, bu zaman hökumət siyasətinə aid poçt sahəsindəki məsələləri öyrənməklə, beynəlxalq hüquqi tənzimləmənin tələblərini, məsələn, xidmətlərin ticarətinə və rəqabətə dair tələbləri nəzərə almaqla, konqreslərarası müddətdə İttifaqın bütün fəaliyyətinə nəzarət etmək;

6.2. beynəlxalq poçt xidmətinin keyfiyyətinin qorunması, artırılması və onun təkmilləşdirilməsi üçün zəruri olan istənilən tədbirlərə səlahiyyətləri çərçivəsində baxmaq və təsdiq etmək;

6.3. beynəlxalq texniki əməkdaşlıq çərçivəsində poçt texniki yardımının bütün formalarını təşviq etmək, əlaqələndirmək və nəzarət etmək;

6.4. **proqram** və ikiillik büdcəyə, habelə İttifaqın hesablarına baxmaq və təsdiq etmək;

6.5. zəruri olduğu təqdirdə, 128.3 - 5-ci maddəyə uyğun xərclər həddinin aşmasına icazə vermək;

6.6. ÜPİ-nin maliyyə reqlamentini müəyyənləşdirmək;

6.7. ehtiyat fonduna aid qaydaları müəyyən etmək;

6.8. xüsusi fondu müəyyənləşdirən qaydaları müəyyən etmək;

6.9. xüsusi fəaliyyət növləri fondunu müəyyənləşdirən qaydaları müəyyən etmək;

6.10. könüllü fondu müəyyənləşdirən qaydaları müəyyən etmək;

6.11. Beynəlxalq Büronun fəaliyyətinə nəzarəti təmin etmək;

6.12. müraciət daxil olduqda, 130.6-cı maddədə nəzərdə tutulmuş şərtlərlə üzvlük haqları üzrə daha aşağı dərəcələrə keçməyə icazə vermək;

6.13. bir coğrafi qrupdan digərinə keçmək xahişi ilə üzv ölkə müraciət etdikdə, müvafiq coğrafi qrupların **üzv ölkələrinin** rəylərini nəzərə almaqla, razılıq vermək;

6.14. heyətin Nizamnaməsini və seçilən qulluqçuların xidmət şərtlərini müəyyənləşdirmək;

6.15. xərclərin həddi ilə bağlı müəyyən edilmiş məhdudiyyətləri nəzərə almaqla, Beynəlxalq Büronun işçi vəzifələrini açmaq və ya ixtisara salmaq;

6.16. sosial fondun reqlamentini müəyyənləşdirmək;

6.17. İttifaqın fəaliyyəti və ikiillik maliyyə fəaliyyəti haqqında Beynəlxalq Büronun tərtib etdiyi hesabatlan təsdiq etmək, zərurət yarandıqda, bu barədə öz şərhlərini vermək;

6.18. öz vəzifələrini yerinə yetirmək üçün **üzv ölkələrlə** əlaqələrə dair məsələni həll etmək;

6.19. Poçt İstismarı Şurası ilə məsləhətləşmədən sonra rəsmən müşahidəçi olmayan təşkilatlarla əlaqələrin yaradılmasına dair qərarlar qəbul etmək, ÜPİ-nin digər beynəlxalq təşkilatlarla münasibətləri haqqında Beynəlxalq Büronun hesabatlarına baxmaq və onları təsdiq etmək, bu əlaqələrin davam etdirilməsinin və inkişafının məqsədəuyğunluğuna dair qərarlar qəbul etmək; Konqresin və onun komissiyalarının müəyyən iclaslarına təmsilçilərini göndərmələrini hansı beynəlxalq təşkilatlar, assosiasiyalar, müəssisələr və ixtisaslı şəxslərə təklif etməli məsələsini, əgər bu İttifaqın maraqlarına uyğundursa və ya Konqresin işinə fayda gətirə bilərsə, vaxtında Poçt İstismarı Şurası və baş direktorla məsləhətləşmədən sonra müəyyənləşdirmək və Beynəlxalq Büronun baş direktoruna müvafiq dəvətnamələrin göndərilməsini tapşırmaq;

6.20. o, bunu məqsədəuyğun hesab etdiyi hallarda əhəmiyyətli maliyyə nəticələrinə (tariflər, son xərclər, tranzit xərcləri, poçtun aviadaşınmasına görə əsas tarif və xaricdə məktub korrespondensiyasının verilməsi) malik məsələlərin tədqiqində Poçt İstismarı Şurasının nəzərə almalı olduğu prinsipləri müəyyənləşdirmək, bu məsələlərin tədqiqini diqqətlə izləmək və elə həmin bu məsələlərə dair yuxarıda sadalanan prinsiplərə onların uyğunluğunu təmin etmək üçün Poçt İstismarı Şurasının təkliflərinə baxmaq və təsdiq etmək;

6.21. Konqres, Poçt İstismarı Şurası və ya **üzv ölkələrin** xahişi ilə İttifaq və ya beynəlxalq poçt xidməti üçün maraq kəsb edən inzibati, qanunverici və hüquqi xarakterli problemləri öyrənmək. İnzibati Şura yuxarıda sadalanan sahələrdə **üzv ölkələrin** konqreslərarası müddətdə tələb etdiyi tədqiqatların aparılması məsələsinin məqsədəuyğunluğunu və ya məqsədəuyğun olmamağını həll etməlidir;

6.22. 125-ci maddəyə uyğun olaraq Konqresə və yaxud **üzv ölkələrə** təsdiq üçün təqdim olunacaq təklifləri tərtib etmək;

6.23. zəruri halda nizamnamə və ya yeni təcrübənin qəbul olunmasına dair Poçt İstismarı Şurasının tövsiyəsini, Konqres məsələni həll edənədək, öz səlahiyyətləri çərçivəsində təsdiq etmək;

6.24. Poçt İstismarı Şurasının tərtib etdiyi illik hesabata və lazım olduğu təqdirdə, onun təqdim etdiyi təkliflərə baxmaq;

6.25. 104.9.16-cı maddəyə uyğun olaraq tədqiqat mövzularına baxılması üçün onları Poçt İstismarı Şurasına təqdim etmək;

6.26. 101.4-cü maddədə nəzərdə tutulmuş halda, növbəti Konqresi qəbul edəcək **üzv ölkəni** müəyyən etmək;

6.27. vaxtında və Poçt İstismarı Şurası ilə məsləhətləşmədən sonra Konqresin işinin uğurlu keçməsi üçün zəruri olan komissiyaların sayını və onların vəzifələrini müəyyən etmək;

6.28. Poçt İstismarı Şurası ilə məsləhətləşmədən sonra, habelə Konqres tərəfindən bəyənilməsi şərti ilə aşağıdakıları yerinə yetirməyə qabil üzv ölkələri təyin etmək:

- ölkələrin ədalətli coğrafi bölgüsünü nəzərə almaqla, Konqresin sədr müavinlərinin vəzifələrini yerinə yetirmək;

- məhdud tərkibli Konqresin komissiyalarında iştirak etmək;

6.29. **Poçt İstismarı Şurası ilə məsləhətləşmədən sonra**, Konqresə təqdim olunan **strategiya** layihəsinə baxmaq və təsdiq etmək;

**6.30. Beynəlxalq Büronun Poçt İstismarı Şurası ilə məsləhətləşmədən sonra tərtib etdiyi, əvvəlki Konqresin bəyəndiyi, növbəti Konqresə vermək üçün İttifaqın strategiyasının üzv ölkələr tərəfindən həyata keçirilməsi haqqında dördillik dövr üzrə hesabatı təsdiq etmək;**

6.31. Məşvərət Komitəsinin fəaliyyət çərçivəsini müəyyənləşdirmək və 106-cı maddənin müddəalarına uyğun onun işinin təşkilinə yardım etmək;

6.32. Məşvərət Komitəsinə qoşulmaq meyarlarını müəyyənləşdirmək və müraciətlərə tezləşdirilmiş prosedura uyğun İnzibati Şuranın yığıncaqları arasında baxılacağına təminat verməklə bu meyarlara uyğun qoşulma haqqında müraciətləri qəbul və ya rədd etmək;

6.33. Məşvərət Komitəsinə daxil olacaq **öz** üzvlərini təyin etmək;

6.34. Məşvərət Komitəsinin hesabat və tövsiyələrini müzakirə etmək, habelə Konqresə təqdim etmək üçün onun tövsiyələrinə baxmaq.

7. Konqresin sədri tərəfindən çağırılan birinci müşavirədə İnzibati Şura öz üzvlərindən dörd sədr müavinini seçir və özünün daxili reqlamentini təsdiq edir.

8. Öz sədrinin çağırışı ilə İnzibati Şura prinsip etibarı ilə, ildə bir dəfə İttifaqın yerləşdiyi yerdə toplaşır.

9. Sədr, sədr müavinləri və **İnzibati Şuranın** komissiyalarının sədrləri İdarəedici Komitəni **yaradırlar**. Bu komitə İnzibati Şuranın hər bir sessiyasını hazırlayır və işinə rəhbərlik edir. O, İnzibati Şura adından İttifaqın fəaliyyəti haqqında Beynəlxalq Büronun tərtib etdiyi ikiillik dövr üzrə hesabatı bəyənir, habelə İnzibati Şuranın ona həvalə etmək qərarına gəldiyi və ya strateji planlaşdırma prosesində yaranan bütün məsələləri yerinə yetirir.

10. İnzibati Şuranın sessiyalarının işində iştirak edən bu orqanın hər bir üzvünün təmsilçisinin **nəqliyyat xərclərini onun üzv ölkəsi ödəyir. Lakin Birləşmiş Millətlər Təşkilatının tərtib etdiyi siyahılara uyğun olaraq, inkişafda etməkdə və ya daha az inkişaf etmiş ölkələrə aid olan hər bir üzv öfkələnin təmsilçisi Konqres vaxtı keçirilən yığıncaqlar istisna olmaqla,** ekonomik klass üzrə gediş-gəliş aviabiletinin və ya dəmiryol biletinin 1-ci klass üzrə dəyərinin və ya ekonomik klass üzrə gediş-gəliş aviabiletinə sərf etdiyi məbləğdən çox olmamaq şərti ilə digər nəqliyyat vasitələrinə sərf etdiyi vəsaitin ona ödənilməsi **hüququna malikdir.** Həmin hüquq onun komissiyalarının, işçi qruplarının və ya digər orqanlarının, əgər onlar Konqres və ya şuranın sessiyalarından kənar yığıncaqlar keçirirlərsə, hər bir üzvünün təmsilçisinə verilir.

11. Rəhbərlik etdiyi orqana dair məsələlər İnzibati Şuranın müşavirələrinin gündəliyinə daxil edildikdə, Poçt İstismarı Şurasının sədri bu tədbirlərdə öz qurumunu təmsil edir.

12. Məşvərət Komitəsini maraqlandıran məsələlər İnzibati Şuranın yığıncaqlarının gündəliyinə daxil edildikdə, Məşvərət Komitəsinin sədri rəhbərlik etdiyi qurumu bu tədbirlərdə təmsil edir.

13. İki orqanın işində səmərəli əlaqəni təmin etmək məqsədi ilə Poçt İstismarı Şurası İnzibati Şuranın yığıncaqlarında müşahidəçi qismində iştirak etmək üçün təmsilçiləri təyin edə bilər.

14. Ərazisində İnzibati Şuranın yığıncaqları keçirildiyi **üzv ölkə** və bu ölkə İnzibati Şuranın üzvü olmadığı təqdirdə, bu yığıncaqlarda müşahidəçi qismində iştirak etmək üçün **dəvət olunur.**

15. İnzibati Şura öz yığıncaqlarında iştirak etmək üçün səsvermə hüququ olmadan istənilən beynəlxalq təşkilatı, istənilən assosiasiya və ya müəssisələrin təmsilçisini, habelə öz işinə cəlb etmək istədiyi istənilən şəxsi dəvət edə bilər. Həmin şərtlərlə o, həmçinin onun gündəliyində nəzərdə tutulmuş məsələlərdə **maraqlı olan** bir və ya bir neçə **üzv ölkəni də** dəvət edə bilər.

16. Aşağıda qeyd edilən müşahidəçilər öz xahişləri ilə səsvermə hüququ olmadan plenar iclaslarda və İnzibati Şuranın komissiyalarının iclaslarında iştirak edə bilərlər:

16.1. Poçt İstismarı Şurasının üzvləri;

16.2. Məşvərət Komitəsinin üzvləri;

16.3. İnzibati Şuranın işinə maraq göstərən hökumətlərarası təşkilatlar;

16.4. İttifaqın digər üzv ölkələri.

17. Maddi-texniki səbəblərdən İnzibati Şura müşahidəçilərin iştirakını bir şəxslə məhdudlaşdıra bilər. O, həmçinin müzakirələr zamanı onların çıxış etmək hüququnu məhdudlaşdıra bilər.

18. İnzibati Şuranın üzvləri onun fəaliyyətində fəal iştirak edirlər. Müşahidəçilərin xahişi ilə onlara, şuranın işinin səmərəliliyi və effektivliyi üçün şuranın təyin etdiyi şərtlərə əməl etməklə, keçirilən tədqiqatlarda iştirak etməyə icazə verilə bilər. Onların bilik və ya təcrübələri özünü doğrultduqda, onlara həmçinin işçi və layihə qruplarının sədri olmaq təklif edilə bilər. Müşahidəçilərin iştirakı İttifaq üçün əlavə xərclər yaratmamalıdır.

19. Müstəsna hallarda müşahidəçilər iclaslara və ya iclasın hissəsinə buraxılmaya bilərlər. Həmçinin onların bəzi sənədləri, əgər bunu sənədin və ya iclasın mövzusunun məxfiliyi tələb edirsə, almaq hüququ məhdudlaşdırıla bilər, belə məhdudiyyət haqqında qərar ayrı-ayrı hər bir halda istənilən əlaqədar orqan və ya onun sədri tərəfindən qəbul oluna bilər, əgər baxılan məsələlər bu orqan üçün maraq kəsb edirsə, ayrı-ayrı hər bir hal İnzibati Şuranın və ya Poçt İstismarı Şurasının nəzərinə çatdırılmalıdır. İnzibati Şura zəruri hesab edərsə o, sonralar Poçt İstismarı Şurası ilə birlikdə, əgər bu məqsədəuyğundursa, məhdudiyyətlərə yenidən baxa bilər.

## Maddə 3
## (Dəyişiklik edilmiş maddə 103)
## İnzibati Şuranın fəaliyyəti haqqında məlumat

1. Hər sessiyadan sonra İnzibati Şura öz fəaliyyəti haqqında üzv ölkələri, **onların təyin etdiyi operatorları,** regional ittifaqları və Məşvərət Komitəsinin üzvlərini məlumatlandırır, o cümlədən analitik hesabatı, habelə özünün qətnamə və qərarlarını onlara göndərir.

2. İnzibati Şura Konqresə öz fəaliyyəti haqqında hesabatı təqdim edir və onu Konqresin başlanmasından ən azı iki ay əvvəl **üzv ölkələrə, onların təyin etdiyi operatorlara** və Məşvərət Komitəsinin üzvlərinə göndərir.

## Maddə 4
## (Dəyişiklik edilmiş maddə 104)

**Poçt İstismarı Şurasının tərkibi, fəaliyyəti və iclasları (Nizamnamə, m. 18)**

1. Poçt İstismarı Şurası öz vəzifələrini iki ardıcıl Konqresi ayıran müddət ərzində yerinə yetirən qırx üzvdən ibarətdir.

2. Poçt İstismarı Şurasının üzvləri xüsusi coğrafi bölgü əsasında Konqres tərəfindən seçilirlər. İnkişafda etməkdə olan **üzv ölkələrə** iyirmi dörd yer, sənaye cəhətdən inkişaf etmiş **üzv ölkələrə** on altı yer verilir. Hər Konqresdə üzvlərin ən azı üçdə biri dəyişdirilir.

3. Poçt İstismarı Şurasının hər bir üzvü öz təmsilçisini təyin edir və o, İttifaq aktlarında xidmətlərin göstərilməsinə dair sözügedən öhdəlikləri yerinə yetirir.

4. Poçt İstismarı Şurasının fəaliyyəti ilə bağlı xərcləri İttifaq ödəyir. Onun üzvləri heç bir pul vəsaiti almır. Poçt İstismarı Şurasının işində iştirak edən **üzv ölkələrin** təmsilçilərinin səfərləri və yaşamaları ilə bağlı xərclərini qeyd olunan **üzv ölkələr** ödəyir. Lakin Birləşmiş Millətlər Təşkilatının siyahılarına uyğun əlverişsiz şəraitdə yerləşən kimi baxılan hər bir **üzv ölkənin** təmsilçisi, Konqres vaxtı keçirilən iclaslar istisna olmaqla, ekonomik klass üzrə gediş-gəliş aviabiletinin və ya 1-ci klasda dəmiryol biletinin dəyərinin və ya ekonomik klass üzrə gediş-gəliş aviabiletinə şərf etdiyi məbləğdən çox olmamaq şərti ilə istənilən digər nəqliyyat vasitələrinə sərf etdiyi vəsaitin ona ödənilməsi hüququna malikdir.

5. Konqresin sədri tərəfindən çağırılan və açıq elan edilən Poçt İstismarı Şurası özünün birinci iclasında öz üzvlərinin sıralarından sədr, sədr müavini və **komissiyaların** sədrlərini seçir.

6. Poçt İstismarı Şurası özünün daxili reqlamentini müəyyən edir.

7. Poçt İstismarı Şurası, prinsip etibarilə, hər il İttifaqın olduğu yerdə toplaşır. İclasın tarixi və yeri Poçt İstismarı Şurasının sədri və Beynəlxalq Büronun baş direktoru ilə razılaşdırıldıqdan sonra onun sədri tərəfindən müəyyən edilir.

8. Sədr, sədr müavini və Poçt İstismarı Şurasının komissiya sədrləri İdarəedici Komitəni yaradırlar. Bu komitə Poçt İstismarı Şurasının hər bir sessiyasının işini hazırlayır və rəhbərlik edir, şuranın ona tapşırdığı və ya strateji planlaşdırma prosesində zərurət yarandığı bütün məsələləri yerinə yetirir.

9. Poçt İstismarı Şurasının vəzifələri aşağıdakılardır:

9. 1. İttifaqın bütün üzv ölkələri və ya **onların təyin etdiyi operatorlar** üçün maraq kəsb edən istismar, ticarət, texniki, iqtisadi və texniki xarakterli və texniki əməkdaşlığın ən mühüm, o cümlədən əhəmiyyətli maliyyə nəticələrinə (tariflər, son xərclər, tranzit xərcləri, poçtun hava yolu ilə daşınması üzrə əsas tariflər, poçt bağlamaları üzrə tariflərin payı və məktub korrespondensiyasının xaricdə verilməsi) malik olan məsələlərin tədqiqatı, onların mövzuları üzrə məlumat və rəylərin hazırlanması və onlara qarşı qəbul olunmalı tədbirlərin tövsiyəsi;

9.2. bu Konqres digər qərar qəbul etmədiyi təqdirdə, Konqres bağlandıqdan sonrakı altı ay ərzində İttifaqın reqlamentlərinə yenidən baxır, ehtiyac olduğu təqdirdə, Poçt İstismarı Şurası qeyd edilən reqlamentləri digər sessiyalarda da dəyişə bilər. Hər iki halda Poçt İstismarı Şurası İnzibati Şuranın siyasət və əsas prinsiplərə dair direktivlərinə tabe olur;

9.3. beynəlxalq poçt xidmətlərinin inkişafı və yaxşılaşdırılması üçün praktiki tədbirləri əlaqələndirir;

9.4. öz səlahiyyətləri çərçivəsində İnzibati Şuranın bəyəndiyi beynəlxalq poçt xidmətinin keyfiyyətinin qorunması, inkişafı və onun təkmilləşdirilməsi üçün zəruri olacaq istənilən fəaliyyəti həyata keçirir;

9.5. 125-ci maddəyə uyğun olaraq bəyənilmək üçün Konqresə və ya **üzv ölkələrə** təqdim olunacaq təklifləri hazırlayır, İnzibati Şura tərəfindən bəyənilməsi verilən təkliflərin bu orqanın səlahiyyətlərinə aid olduğu təqdirdə tələb olunur;

9.6. 124-cü maddəyə əsasən **üzv ölkələrin** xahişi ilə onlar tərəfindən Beynəlxalq Büroya göndərilən istənilən təklifə baxır, ona dair iradları hazırlayır və bəyənilməsi üçün **üzv ölkələrə** təqdim etməzdən əvvəl onları qeyd olunan təklifə əlavə edilməsini büroya tapşırır;

9.7. zərurət yarandıqda, İnzibati Şura bəyəndikdən və bütün **üzv ölkələr** arasında sorğu keçirildikdən sonra Konqres bu məsələ üzrə qərar qəbul etməyənədək nizamnamə və ya yeni təcrübənin qəbulunu tövsiyə edir;

9.8. texniki, istismar və təcrübə standartlaşmanı tələb edən digər sahələrdə normativləri işləyib hazırlayır və tövsiyə şəklində **üzv ölkələrə və onların təyin etdiyi operatorlarına** təqdim edir, bununla yanaşı o, zərurət yarandığı təqdirdə, özünün artıq müəyyən etdiyi normativlərinə dəyişiklikləri daxil edir;

9.9. **Konqresə təqdim etmək məqsədi ilə strategiya layihəsinin işlənilib hazırlanması üçün zəruri olan elementləri İnzibati Şuraya təqdim edir;**

9.10. Poçt İstismarı Şurasının məsuliyyəti və vəzifələrinə aid olan bölmələrin hissələri üzrə ikiillik dövr üçün İttifaqın fəaliyyəti haqqında Beynəlxalq Büronun hesabatını təsdiq edir;

9.11. üzərinə qoyulan vəzifələrin yerinə yetirilməsi üçün **üzv ölkələr və onların təyin etdiyi operatorlarla** yaratmalı olduğu əlaqələrə dair qərarlar qəbul edir;

9.12. üzv ölkələri və **onların təyin etdiyi operatorlarmı, habelə yeni və inkişafda etməkdə olan ölkələri** maraqlandıran tədris və peşə hazırlığı üzrə məsələləri öyrənir;

9.13. poçt xidmətləri üçün əhəmiyyətli olan texnika, istismar, iqtisadiyyat və peşə hazırlığı sahəsində bəzi **üzv ölkələrin və onların təyin etdiyi operatorların** təcrübə və nailiyyətlərini öyrənir, yaymaq məqsədi ilə zəruri tədbirlər görür;

9.14. yeni və inkişafda etməkdə olan ölkələrdə poçt xidmətlərinin mövcud vəziyyətini və tələbatını öyrənir və bu ölkələrdə poçt xidmətlərinin yaxşılaşdırılmasının yolları və vasitələri haqqında lazımi tövsiyələri işləyib hazırlayır;

9.15. İnzibati Şura ilə razılaşdırdıqdan sonra İttifaqın bütün üzv ölkələri və **onların təyin etdiyi operatorları**, xüsusilə yeni və inkişafda etməkdə olan ölkələr və **onların təyin etdiyi operatorlar** ilə texniki əməkdaşlıq sahəsində müvafiq tədbirlər görür;

9.16. Poçt İstismarı Şurasının hansısa üzvü, İnzibati Şura və ya istənilən **üzv ölkə yaxud təyin olunmuş operator** tərəfindən ona təqdim edilən bütün digər məsələlərə baxır;

9.17. Poçt İstismarı Şurası üçün əhəmiyyətli olan məsələlər üzrə Məşvərət Komitəsinin hesabat və tövsiyələrini alır və müzakirə edir, Məşvərət Komitəsinin tövsiyələrinə baxır və onlar üzrə iradları Konqresə təqdim etmək üçün irəli sürür;

9.18. Məşvərət Komitəsinin tərkibinə daxil ediləcək üzvlərini təyin edir.

10. Konqresin **təsdiq etdiyi** İttifaqın **strategiyası**, xüsusilə İttifaqın daimi orqanlarının strategiyasına aid olan hissəsi əsasında, Poçt İstismarı Şurası özünün Konqresdən sonrakı sessiyasında strategiyanın həyata keçirilməsinə yönəldilmiş bir sıra

üsulları daxil edən əsas işçi proqramı tərtib edir. Yeni şərtlər və prioritetlərdən asılı olaraq aktual və ümumi maraq kəsb edən mövzular üzrə məhdud sayda iş növlərini daxil edən bu əsas proqrama hər il yenidən baxılır.

11. İki orqanın işində səmərəli əlaqəni təmin etmək üçün İnzibati Şura Poçt İstismarı Şurasının yığıncaqlarında müşahidəçi qismində iştirak etmək üçün təmsilçiləri təyin edə bilər.

12. Aşağıda qeyd olunan müşahidəçilər, səs hüququ olmadan onların xahişləri ilə plenar iclaslarda və Poçt İstismarı Şurasının komissiyalarının iclaslarında iştirak edə bilərlər:

12.1. İnzibati Şuranın üzvləri;

12.2. Məşvərət Komitəsinin üzvləri;

12.3. Poçt İstismarı Şurasının işində maraqlı olan hökumətlərarası təşkilatlar;

12.4. İttifaqın digər üzv ölkələri.

13. Maddi-texniki səbəblərdən Poçt İstismarı Şurası müşahidəçilərin iştirakını bir şəxslə məhdudlaşdıra bilər. O, həmçinin müzakirələr zamanı onların söz almaq hüququnu məhdudlaşdıra bilər.

14. Poçt İstismarı Şurasının üzvləri onun fəaliyyətində fəal iştirak edirlər. Müşahidəçilərə onların xahişi ilə şuranın, onun işinin məhsuldarlığı və səmərəliliyini təmin etmək üçün müəyyən edə biləcəyi şərtlərə riayət etməklə, aparılan təhqiqatlarda iştirak etməyə icazə verilə bilər. Onlara, həmçinin bilik və ya təcrübələrinin bunu doğrultduğu təqdirdə, işçi və layihə qrupları sədrinin vəzifələrini yerinə yetirmək təklif oluna bilər. Müşahidəçilərin iştirakı İttifaq üçün əlavə xərclər yaratmamalıdır.

15. Müstəsna hallarda müşahidəçilər iclaslara və ya iclasın bir hissəsinə buraxılmaya bilərlər. Həmçinin, iclasın mövzusu və ya sənədin məxfiliyi onu tələb etdiyi təqdirdə, onların bəzi sənədləri almaq hüququ məhdudlaşdırıla bilər, belə məhdudiyyət haqqında qərarı ayrı-ayrı hər bir halda maraqlı olan istənilən orqan və ya onun sədri qəbul edə bilər, baxılan məsələlər bu orqan üçün xüsusi maraq kəsb etdiyi təqdirdə ayrı-ayrı hər bir hal İnzibati Şuranın və Poçt İstismarı Şurasının nəzərinə çatdırılmalıdır. İnzibati Şura lazım bildiyi təqdirdə, Poçt İstismarı Şurası ilə birgə bu məhdudiyyətlərə yenidən baxa bilər.

16. Məşvərət Komitəsinin sədri onu, gündəliyinə Məşvərət Komitəsi üçün maraq kəsb edən məsələlər daxil olan Poçt İstismarı Şurasının iclaslarında təmsil edir.

17. Poçt İstismarı Şurası öz iclaslarında səs hüququ olmadan iştirak etmək üçün aşağıdakıları dəvət edə bilər:

17.1. öz işinə cəlb etmək istədiyi istənilən beynəlxalq təşkilatı və ya istənilən ixtisaslı şəxsi;

17.2. Poçt İstismarı Şurasına daxil olmayan **istənilən üzv ölkəni;**

17.3. öz fəaliyyətinə dair məsələlər üzrə məsləhətləşmə aparmaq istədiyi istənilən assosiasiyanı və ya müəssisəni.

## Maddə 5
## (Dəyişiklik edilmiş maddə 105)
## Poçt İstismarı Şurasının fəaliyyəti haqqında məlumat

1. Hər sessiyadan sonra Poçt İstismarı Şurası analitik hesabatı, habelə özünün qətnamə və qərarlarını göndərməklə üzv ölkələri, **onların təyin olunmuş**

**operatorlarını**, regional ittifaqları və Məşvərət Komitəsinin üzvlərini öz fəaliyyəti haqqında məlumatlandırır.

2. Poçt İstismarı Şurası İnzibati Şura üçün özünün fəaliyyəti haqqında illik hesabatı tərtib edir.

3. Konqresin başlanmasına ən azı 2 ay qalmış Poçt İstismarı Şurası Konqresə özünün bütün fəaliyyəti haqqında hərtərəfli hesabatı təqdim edir və onu İttifaqın üzv ölkələrinə, **onların təyin olunmuş operatorlarına** və Məşvərət Komitəsinin üzvlərinə göndərir.

**Maddə 6**
**(Dəyişiklik edilmiş maddə 106)**
**Məşvərət Komitəsinin tərkibi, fəaliyyəti və iclasları**

1. Məşvərət Komitəsinin məqsədi poçt sektorunun maraqlarını təmsil etməkdən və maraqlı tərəflər arasında səmərəli dialoqu təmin edən orqan kimi xidmət göstərməkdən ibarətdir. Bu orqanın tərkibinə istehlakçıları, poçtun çatdırılması üzrə xidmət provayderlərini təmsil edən qeyri-hökumət təşkilatları, işçiləri, poçt sektoru üçün mal və xidmətlərin təchizatçıları, habelə ittifaqın **vəzifə və məqsədlərinin yerinə yetirilməsində yardımçı olmaq niyyətində olan** fərdi şəxsləri və ya şirkətləri birləşdirən təşkilatlar daxildir. Bu təşkilatlar qeydiyyatdan keçdiyi təqdirdə, onlar İttifaqın üzv ölkəsində qeydiyyatdan keçməlidirlər. İnzibati Şura və Poçt İstismarı Şurası özünün müvafiq üzvlərini Məşvərət Komitəsinin tərkibinə təyin edirlər. İnzibati Şura və Poçt İstismarı Şurasının təyin etdikləri üzvlərdən başqa Məşvərət Komitəsinə qoşulma, xahişin verilmə və onun İnzibati Şura tərəfindən müəyyən edilən və 102.6.32-ci maddəyə uyğun həyata keçirilən təsdiqi prosesinin nəticəsində həyata keçirilir.

2. Məşvərət Komitəsinin hər bir üzvü öz şəxsi təmsilçisini təyin edir.

3. Məşvərət Komitəsinin fəaliyyəti ilə bağlı xərclər İnzibati Şuranın müəyyən etdiyi formalara uyğun olaraq İttifaq və Komitənin üzvləri arasında bölüşdürülür.

4. Məşvərət Komitəsinin üzvləri heç bir mükafat və kompensasiya almır.

5. Hər Konqresdən sonra İnzibati Şuranın müəyyənləşdirdiyi şərtlərə uyğun olaraq, Məşvərət Komitəsi yenidən yaradılır. İnzibati Şuranın sədri bu iclasda Komitənin sədrini seçən Məşvərət Komitəsinin təşkilati iclasının sədridir.

6. Məşvərət Komitəsi özü daxili təşkilini müəyyənləşdirir və Poçt İstismarı Şurası ilə məsləhətləşmədən sonra İnzibati Şuranın bəyəndiyi təqdirdə, İttifaqın ümumi prinsiplərini nəzərə almaqla, özü şəxsi daxili reqlamentini işləyib hazırlayır.

7. Məşvərət Komitəsi ildə iki dəfə iclaslar keçirir. İclaslar, prinsip etibarilə, İnzibati Şura və Poçt İstismarı Şurasının keçirdikləri sessiyalar müddətində İttifaqın qərargahında keçirilir. Hər bir iclasın tarixi və yeri İnzibati Şura və Poçt İstismarı Şurasının sədrlərinin və Beynəlxalq Büronun baş direktorunun razılığı ilə Məşvərət Komitəsinin sədri tərəfindən müəyyən edilir.

8. Məşvərət Komitəsi özünün şəxsi proqramım aşağıdakı vəzifələrə uyğun olaraq işləyib hazırlayır:

8.1. İnzibati Şuranın və Poçt İstismarı Şurasının müvafiq sənəd və hesabatlarına baxmaq, müstəsna hallarda iclas və ya sənədin həsr olunduğu mövzunun məxfiliyinə riayət etmək üçün onun müəyyən mətn və sənədləri almaq hüququ məhdudlaşdırıla

bilər, belə məhdudiyyət haqqında qərar ayrı-ayrı hər bir halda müvafiq orqan və ya onun sədri tərəfindən qəbul oluna bilər, bu orqan üçün maraq kəsb edən məsələlərə toxunduğu təqdirdə ayrı-ayrı hər bir hal haqqında İnzibati Şuraya və Poçt İstismarı Şurasına xəbər veriləcəkdir, lazım olduğu təqdirdə, gələcəkdə Poçt İstismarı Şurası ilə məsləhətləşmədən sonra İnzibati Şura məhdudiyyətlərə yenidən baxa bilər;

8.2. Məşvərət Komitəsinin üzvləri üçün mühüm olan məsələləri öyrənmək və müzakirə etmək;

8.3. poçt xidmətləri sektoruna aid məsələləri öyrənmək və bu məsələlər üzrə hesabatlan təqdim etmək;

8.4. hesabat və tövsiyələri təqdim etməklə və hər iki şuranın xahişi ilə öz rəyini bəyan etməklə İnzibati Şura və Poçt İstismarı Şurasının işinə yardım etmək;

8.5. İnzibati Şuranın bəyənməsi şərti ilə, Poçt İstismarı Şurasını maraqlandıran məsələlər üzrə isə axırıncının baxması və şərh verməsindən sonra Konqresə tövsiyələri təqdim etmək.

9. İnzibati Şuranın və Poçt İstismarı Şurasının sədrləri Məşvərət Komitəsinin iclaslarında, bu iclasların gündəliyinə bu orqanların maraqlarını əks etdirən məsələlər daxil edildiyi təqdirdə bu orqanları təmsil edirlər.

10. İttifaqın orqanları ilə səmərəli əlaqəni yaratmaq üçün Məşvərət Komitəsi səs hüququ olmadan müşahidəçilər qismində Konqresin, İnzibati Şuranın və Poçt İstismarı Şurasının iclaslarında, habelə onların müvafiq komissiyalarında iştirak edəcək təmsilçiləri təyin edə bilər.

11. Məşvərət Komitəsinin üzvləri öz xahişləri ilə 102.16-cı və 104.12-ci maddələrə uyğun olaraq plenar iclaslarda İnzibati Şura və Poçt İstismarı Şurasının iclaslarında iştirak etmək hüququnu əldə edə bilərlər. Onlar, həmçinin 102.18-ci və 104.14-cü maddələrin müddəalarına uyğun olaraq layihə və işçi qrupların işində iştirak edə bilərlər. Məşvərət Komitəsinin üzvləri səs hüququ olmadan müşahidəçilər qismində Konqresdə iştirak edə bilərlər.

12. Aşağıda qeyd olunan müşahidəçilər onların xahişi ilə səs hüququ olmadan Məşvərət Komitəsinin iclaslarında iştirak edə bilərlər:

12.1. İnzibati Şura və Poçt İstismarı Şurasının üzvləri;

12.2. Məşvərət Komitəsinin işində maraqlı olan hökumətlərarası təşkilatlar;

12.3. regional ittifaqlar;

12.4. İttifaqın digər üzvləri.

13. Maddi-texniki səbəblərdən Məşvərət Komitəsi müşahidəçilərin iştirakını bir şəxslə məhdudlaşdıra bilər. O, həmçinin müzakirələr zamanı onların çıxış etmək hüququnu məhdudlaşdıra bilər.

14. İstisna hallarda müşahidəçilər iclaslara və ya iclasın bir hissəsinə buraxılmaya bilərlər. İclasın və ya sənədin mövzusunun məxfiliyi bunu tələb etdiyi təqdirdə, həmçinin onların bəzi sənədləri almaq hüququ məhdudlaşdırıla bilər, belə məhdudiyyət haqqında qərarı ayrı-ayrı hər bir halda müvafiq orqan və ya onun sədri qəbul edə bilər, baxılan məsələlər bu orqan üçün əhəmiyyətli olduqda ayrı-ayrı hər bir hal İnzibati Şura və Poçt İstismarı Şurasının nəzərinə çatdırılmalıdır. İnzibati Şura lazım bildiyi və bu məqsədəuyğun olduğu təqdirdə o, gələcəkdə Poçt İstismarı Şurası ilə birgə məhdudiyyətlərə yenidən baxa bilər.

15. Baş direktorun rəhbərliyi altında Beynəlxalq Büro Məşvərət Komitəsinin katibliyinin vəzifələrini yerinə yetirəcəkdir.

**Maddə 7**
**(Dəyişiklik edilmiş maddə 107)**
**Məşvərət Komitəsinin fəaliyyəti haqqında məlumat**

1. Hər sessiyadan sonra Məşvərət Komitəsi öz fəaliyyəti barədə İnzibati Şura və Poçt İstismarı Şurasının sədrlərinə digər sənədlərlə yanaşı öz iclasları haqqında analitik hesabatı, habelə öz tövsiyə və rəylərini də göndərməklə bu orqanları məlumatlandırır.

2. Məşvərət Komitəsi bir nüsxəni Poçt İstismarı Şurasına göndərməklə, İnzibati Şura üçün öz fəaliyyəti haqqında illik hesabatı tərtib edir. Bu hesabat 103-cü maddəyə uyğun olaraq, İttifaqın üzv ölkələrinə, **onların təyin olunmuş operatorlarına** və regional ittifaqlara göndərilən İnzibati Şuranın sənədlərinə daxil edilir.

3. Məşvərət Komitəsi özünün bütün fəaliyyəti haqqında Konqres üçün hesabat tərtib edir və Konqresin başlanmasına ən azı iki ay qalmış onu **üzv ölkələrə və onların təyin olunmuş operatorlarına** göndərir.

**Maddə 8**
**(Dəyişiklik edilmiş maddə 110)**
**Sənədlər, müzakirələr və xidməti yazışma üçün istifadə edilən dillər**

1. İttifaqın sənədləri fransız, ingilis, ərəb və ispan dillərində tərtib edilir. O cümlədən alman, çin, portuqal və rus dillərindən də istifadə olunur, bir şərtlə ki, bu dillərdə çap əsas, daha mühüm sənədlərlə məhdudlaşacaqdır. Həmçinin digər dillərdən də istifadə oluna bilər, bir şərtlə ki, bunu tələb edən üzv ölkələr onlar üzrə bütün xərcləri ödəyirlər.

2. Rəsmi dildən başqa digər dildən istifadə etmək niyyətində olan üzv ölkə və ya üzv ölkələr linqvistik qrupu təşkil edirlər.

3. Sənədlər rəsmi dildə və təsis edilmiş linqvistik qrupların dillərində Beynəlxalq Büro tərəfindən ya birbaşa, ya da Beynəlxalq Büro ilə razılaşmaya uyğun olaraq, bu qrupların regional bürolarının vasitəçiliyi ilə nəşr etdirilir. Müxtəlif dillərdə nəşr etdirmə də eyni ilə bu qaydada aparılır.

4. Beynəlxalq Büronun bilavasitə dərc etdiyi sənədlər imkan dairəsində eyni zamanda sifariş olunan müxtəlif dillərdə göndərilir.

5. **Üzv ölkələr, yaxud onların təyin olunmuş operatorları** və Beynəlxalq Büro arasında, habelə sonuncu və üçüncü şəxslər arasında yazışma Beynəlxalq Büronun tərcümə xidmətlərində istifadə edilən istənilən dildə aparıla bilər.

6. İstənilən dilə tərcüməyə dair xərclər, § 5-in tətbiqi ilə bağlı xərcləri daxil etməklə, üzvləri sənədləri bu dildə sifariş edən linqvistik qrupun hesabına aid edilir. Rəsmi dili istifadə edən ölkələr qeyri-rəsmi sənədlərin tərcüməsi üçün əvvəldən müəyyənləşdirilmiş haqqı ödəyir və onun üzvlük haqqı vahidi üzrə məbləği, Beynəlxalq Büronun digər işçi dilini istifadə edən üzv ölkələrin ödədiyi məbləğə bərabərdir. Sənədlərin göndərilməsinə dair bütün digər xərcləri İttifaq ödəyir. Sənədlərin alman, çin, portuqal və rus dillərində çap olunmasına görə İttifaqın xərclərinin həddi Konqresin qətnaməsində müəyyənləşdirilir.

7. Hər hansı linqvistik qrupun hesabına aid ediləcək xərclər onların İttifaqın xərclərindəki üzvlük haqlarına mütənasib bu qrupun üzvləri arasında bölüşdürülür. Maraqlı **üzv ölkələr** arasında razılıq olması və özünün qərarı haqqında qrupun təmsilçisi vasitəsilə Beynəlxalq Büroya məlumat vermək şərtilə bu xərclər linqvistik qrupun üzvləri arasında istənilən digər nisbətdə bölüşdürülə bilər.

8. İki ildən çox olmayan müddət ərzində Beynəlxalq Büro üzv ölkənin dil seçiminin istənilən dəyişdirilməsi haqqında xahişini yerinə yetirir.

9. Müzakirələr sinxron tərcümə sisteminin (elektron avadanlıqdan istifadə etməklə və yaxud etməməklə) vasitəsi ilə fransız, ingilis, ispan və rus dillərində aparılır. Bu zaman sistem seçimi Beynəlxalq Büronun baş direktoru və maraqlı üzv ölkələrlə məsləhətləşmədən sonra iclasın təşkilatçılarının münasib hesab etdiyi qaydada həyata keçirilir.

10. Müzakirələr zamanı və § 9-da göstərilmiş iclaslarda da digər dillərin istifadəsinə icazə verilir.

11. Digər dillərdən istifadə edən nümayəndə heyətləri həmin paraqrafda qeyd olunan sistemi tətbiq etməklə, bu sistemə zəruri texniki dəyişiklikləri daxil etmək imkanı olduqda, yaxud ayrı-ayrı tərcüməçilərdən istifadə etməklə § 9-da qeyd olunan dillərdən birinə sinxron tərcüməni təmin edirlər.

11. Sinxron tərcümə ilə bağlı xərclər eyni dildən istifadə edən üzv ölkələr arasında İttifaqın xərclərindəki üzvlük haqlarına mütənasib bölüşdürülür. Lakin avadanlığın quraşdırılması və texniki saxlanılması üzrə xərclər İttifaqın hesabına aid edilir.

13. **Üzv ölkələr və/və ya onların təyin olunmuş operatorları** xidməti yazışmada istifadə edəcəkləri dilə dair razılaşmaya gələ bilərlər. Belə razılaşma olmadıqda fransız dilindən istifadə olunur.

## Maddə 9
## (Dəyişiklik edilmiş maddə 112)
## Baş direktorun vəzifələri

1. Baş direktor qanuni təmsilçisi olduğu Beynəlxalq Büronu təşkil, idarə və ona rəhbərlik edir. O, həmçinin G1-D2 rütbələri üzrə vəzifələri bölüşdürə, bu rütbələrə malik qulluqçuları təyin edə və xidmət üzrə irəli çəkə bilər. O, P1-D2 vəzifələrinə təyin etdikdə ədalətli coğrafi kontinental bölgünü və dilləri diqqətdə saxlamaqla, **üzv ölkələr** tərəfindən tövsiyə edilən, bu üzv ölkələrə mənsub və ya peşəkar fəaliyyətini bu üzv ölkələrdə həyata keçirən namizədlərin peşə ixtisasını nəzərə almalıdır. D2 vəzifələrinə, burada Beynəlxalq Büronun işinin effektivliyi müəyyənedici meyar olmalıdır, imkan dərəcəsində baş direktor və baş direktor müavininin təmsil etdiyi regionlardan fərqli regionların namizədləri təyin edilməlidir. Lakin vəzifələr xüsusi ixtisas tələb etdiyi hallarda, baş direktor kənar mütəxəssislərə müraciət edə bilər. Yeni mütəxəssisi təyin etdikdə o, həmçinin nəzərə alır ki, prinsip etibarı ilə, D2, D1 və P5 rütbələrinə malik şəxslər İttifaqın müxtəlif üzv ölkələrinin nümayəndələri olmalıdır. Beynəlxalq Büronun qulluqçusuna D2, D1 və P5 rütbələrini verdikdə o, həmin prinsipi tətbiq etməyə məcbur deyildir. Bundan başqa işə qəbul prosesində ilk növbədə namizədlərin xidmətləri və yalnız sonra ədalətli coğrafi təmsilçiliyə və dilləri bilməyə dair tələblər nəzərə alınır. İldə

bir dəfə o, İnzibati Şuraya bütün təyinatlar və vəzifə üzrə P4-dən D2-dək irəli çəkilmələr haqqında məlumat verir.

2. Baş direktorun vəzifələri aşağıdakılardan ibarətdir:

2.1. İttifaqın aktlarının depozitarı və İttifaqa qəbul olunmaqda və ona qoşulmaqda, habelə ondan çıxmaqda vasitəçi vəzifələrini yerinə yetirmək;

2.2. Konqresin qəbul etdiyi qərarlar haqqında bütün üzv ölkələrin hökumətlərini məlumatlandırmaq;

2.3. **bütün üzv ölkələri və onların təyin olunmuş operatorlarını** Poçt İstismarı Şurası tərəfindən reqlamentlərin təsdiqi və ya yenidən baxılması haqqında məlumatlandırmaq;

2.4. mümkün qədər minimal səviyyədə İttifaqın tələblərinə uyğun olaraq İttifaqın illik büdcə layihəsini hazırlamaq və vaxtında onu baxılmaq üçün İnzibati Şuraya təqdim etmək; İnzibati Şura büdcəni təsdiq etdikdən sonra İttifaqın üzv ölkələrini büdcə haqqında məlumatlandırmaq və onu icra etmək;

2.5. İttifaq orqanlarının tələbi ilə xüsusi fəaliyyəti, habelə aktlara uyğun olaraq fəaliyyəti həyata keçirmək;

2.6. müəyyən edilmiş siyasət və mövcud vasitələr çərçivəsində İttifaq orqanlarının qoyduğu məqsədlərin əldə olunmasına yönəldilmiş tədbirlər görmək;

2.7. İnzibati Şuraya və ya Poçt İstismarı Şurasına arzu və təklifləri təqdim etmək;

2.8. Konqres işini qurtardıqdan sonra Poçt İstismarı Şurasının daxili reqlamentinə uyğun olaraq, Konqresin qərarlarından irəli gələn reqlamentlər üzrə dəyişikliklərə dair Poçt İstismarı Şurasına təkliflər vermək;

2.9. **İnzibati Şura** üçün və **şuralar** tərəfindən verilən direktivlər əsasında strategiya layihəsini Konqresə təqdim etməyə hazırlamaq;

2.10. **İnzibati Şuranın təsdiq etməsi üçün əvvəlki Konqres tərəfindən bəyənilmiş, növbəti Konqresə təqdim etmək üçün İttifaq strategiyasının dördillik müddət üzrə üzv ölkələrin həyata keçirilməsi haqqında hesabatı tərtib etmək;**

2.11. İttifaqın təmsilçiliyini təmin etmək;

2.12. aşağıdakı münasibətlərdə vasitəçi olmaq:

- ÜPİ və regional ittifaqlar arasında;
- ÜPİ və Birləşmiş Millətlər Təşkilatı arasında;
- ÜPİ və fəaliyyəti İttifaq üçün maraq kəsb edən beynəlxalq təşkilatlar arasında;
- ÜPİ və İttifaq orqanları ilə məsləhətləşmək və ya işlərinə qoşulmaq istəyi olan beynəlxalq təşkilatlar, assosiasiyalar və ya müəssisələr arasında.

2.13. İttifaq orqanlarının baş katibinin vəzifələrini həyata keçirmək və bu qisimdə hazırkı reqlamentin xüsusi müddəalarını nəzərə almaqla aşağıdakıları izləmək:

- İttifaq orqanlarının hazırlığını və işinin təşkilini;
- sənədlərin, hesabatların və protokolların işlənilib hazırlanmasını, nəşri və göndərilməsini;
- İttifaq orqanlarının iclasları zamanı katibliyin fəaliyyətini.

2.14. İttifaq orqanlarının müşavirələrində iştirak etmək və digər şəxslə təmsil etmək imkanına malik olmaqla, səs hüququ olmadan müzakirələrdə iştirak etmək.

**Maddə 10**
**(Dəyişiklik edilmiş maddə 114)**

**İttifaq orqanlarının katibliyi (Nizamnamə, m. 14,15,17,18)**

İttifaq orqanlarının katibliyinin vəzifələri baş direktorun rəhbərliyi altında Beynəlxalq Büro tərəfindən təmin olunur. O, hər bir sessiyaya aid olan bütün sənədləri orqanın **üzv ölkələrinə və onların təyin olunmuş operatorlarına**, orqanın üzvü olmayaraq aparılan tədqiqatlarda əməkdaşlıq edən **üzv ölkələrə və onların təyin olunmuş operatorlarına**, regional ittifaqlara, habelə bunu xahiş edən digər **üzv ölkələrə və onların təyin olunmuş operatorlarına** göndərir.

**Maddə 11**
**(Dəyişiklik edilmiş maddə 116)**
**Arayışlar. Rəylər. Aktların təfsiri və dəyişdirilməsi haqqında sorğular. Sorğular. Hesablaşmalarda vasitəçilik (Nizamnamə, m. 20, Ümumi reqlament, m. 124,125,126)**

1. Beynəlxalq Büro xidmət məsələlərinə aid olan bütün faydalı məsələləri İnzibati Şuraya, Poçt İstismarı Şurasına, **üzv ölkələrə və onların təyin olunmuş operatorlarına** çatdırmaq üçün mütəmadi olaraq onların sərəncamındadır.

2. Ona, xüsusən, beynəlxalq poçt xidməti üçün maraq kəsb edən hər növ məlumatlan toplamaq, razılaşdırmaq, nəşr etmək və göndərmək, əlaqədar tərəflərin xahişi ilə mübahisəli məsələlərə dair fikir bildirmək, İttifaqın aktlarının təfsiri və dəyişdirilməsinə dair sorğuların icrasına təkan vermək və ümumiyyətlə tədqiqatlar aparmaq və sənədlərin tərtibi və ya toplanması üzrə ona yuxarıda göstərilən aktlarla həvalə olunmuş və ya İttifaqın maraqlarına uyğun işləri yerinə yetirmək tapşırılır.

3. Hər hansı bir müəyyən məsələ üzrə digər **üzv ölkələrin və onların təyin olunmuş operatorlarının** rəyini aydınlaşdırmaq məqsədi ilə Beynəlxalq Büro, həmçinin **üzv ölkələrin və onların təyin olunmuş operatorlarının** xahişi ilə sorğular keçirir. Sorğunun nəticələri səsvermə xarakterini daşımır və heç bir rəsmi öhdəliklərlə bağlı deyildir.

4. Beynəlxalq poçt mübadiləsinə aid olan istənilən hesabların ödənilməsində o, klirinq mərkəzi qismində vasitəçi kimi çıxış edə bilər.

**Maddə 12**
**(Dəyişiklik edilmiş maddə 118)**
**Beynəlxalq Büronun təqdim etdiyi blanklar (Nizamnamə, m. 20)**

Beynəlxalq Büroya beynəlxalq cavab kuponlarının hazırlanması və bunlarla, maya dəyərinə uyğun, **üzv ölkələrin və ya onların təyin olunmuş operatorlarının** tələbləri üzrə təchiz edilməsi həvalə olunur.

**Maddə 13**
**(Dəyişiklik edilmiş maddə 119)**
**Regional ittifaqların aktları və xüsusi sazişlər (Nizamnamə, m. 8)**

1. Regional ittifaqların aktlarının Nizamnamənin 8-ci maddəsinə uyğun bağlanılan xüsusi sazişlərin iki nüsxəsini bu ittifaqların katiblikləri və ya beləleri olmadığı təqdirdə, razılığa gələn tərəflərdən biri Beynəlxalq Büronun katibliyinə çatdırmalıdır.

2. Beynəlxalq Büroya regional ittifaqların aktlarında və xüsusi sazişlərdə müştərilər üçün İttifaqın aktlarında nəzərdə tutulduğundan az münasib olan şərtlərin nəzərdə tutulmamağına nəzarət etmə və yuxarıda göstərilən ittifaqların və sazişlərin mövcudluğu haqqında **üzv ölkələri və onların təyin olunmuş operatorlarını** məlumatlandırma həvalə olunur. Beynəlxalq Büro bu müddəa əsasında müəyyən edilmiş istənilən pozuntu haqqında İnzibati Şuraya məlumat verir.

## Maddə 14
## (Dəyişiklik edilmiş maddə 121)
## İttifaqın iki illik fəaliyyəti haqqında hesabat (Nizamnamə, m. 20, Ümumi reqlament, m. 102.6.17)

Beynəlxalq Büro İttifaqın iki illik fəaliyyəti haqqında hesabat tərtib edir və bu hesabat İnzibati Şura tərəfindən təsdiq olunduqdan sonra **üzv ölkələrə və onların təyin olunmuş operatorlarına**, regional ittifaqlara və Birləşmiş Millətlər Təşkilatına göndərilir.

## Maddə 15
## (Dəyişiklik edilmiş maddə 122)
## Konqresə təkliflərin təqdim edilməsi proseduru (Nizamnamə, m. 29)

1. § 2 və 5-də nəzərdə tutulmuş istisnalar şərti ilə, Konqresə istənilən təklifin təqdim edilməsi **üzv ölkələr** tərəfindən aşağıdakı prosedura uyğun həyata keçirilir:

a) Konqresin başlanmasına ən azı altı ay qalmış Beynəlxalq Büroya daxil olmuş təkliflər qəbul edilir;

b) Konqres üçün müəyyənləşdirilmiş tarixdən altı ay əvvəlki müddət ərzində redaktə xarakterli heç bir təklif qəbul olunmur;

c) Konqresin müəyyən olunmuş tarixdən əvvəlki altı və dörd ay arasında **üzv ölkələrin** ən azı ikisi tərəfindən dəstəkləndiyi təqdirdə Beynəlxalq Büroya daxil olmuş prinsipial təkliflər qəbul edilir;

d) Konqresin açılışı üçün müəyyən edilmiş tarixdən dörd aydan iki ayadək müddətdə daxil olmuş prinsipial təkliflərə yalnız o şərtlə yol verilir ki, onları ən azı səkkiz **üzv ölkə** dəstəkləsin. Sonradan daxil olmuş təkliflər qəbul edilmir;

e) dəstək haqqında ərizələr Beynəlxalq Büroya onların aid olduğu təkliflərlə eyni müddətdə daxil olmalıdır.

2. Nizamnamə və ya ümumi reqlament üzrə təkliflər Beynəlxalq Büroya ən azı Konqresin açılışına altı ay qalmış daxil olmalıdır, bu tarixdən sonra Konqresin açılışma qədər daxil olan təkliflərə yalnız o halda baxıla bilər ki, Konqresdə təmsil olunan ölkələrin üçdə iki çoxluğu ilə bu məsələ üzrə Konqres qərar qəbul etsin və § 1-də nəzərdə tutulmuş şərtlərə riayət olunsun.

3. Hər bir təklif prinsip etibarı ilə bir məqsəd güdməlidir və yalnız bu məqsədlə təsdiqlənən dəyişikliklərdən ibarət olmalıdır. **Həmçinin, İttifaq üçün böyük xərclərə gətirib çıxara bilən istənilən təklif, təklifin müəllifi olan üzv ölkənin, onun həyata**

**keçirilməsi üçün zəruri olan maliyyə resurslarını müəyyən etmək üçün Beynəlxalq Büro ilə məsləhətləşmədən sonra hazırladığı maliyyə nəticələrinin izahı ilə müşahidə olunmalıdır.**

4. Redaktə xarakterli təkliflərdə onları təqdim edən **üzv ölkələr** başlıqda qeyd edir: "Proposition d'ordre redactionnel" ("Redaktə xarakterli təkliflər"), Beynəlxalq Büro isə sonra "R" hərfi gələn nömrə ilə dərc edir. Bu qeyd olmayan, lakin Beynəlxalq Büronun zənnincə yalnız redaktə xarakteri daşıyan təkliflər xüsusi qeydlərlə dərc olunur, Beynəlxalq Büro Konqres üçün bu təkliflərin siyahısını hazırlayır.

5. § 1 və 4-də müəyyən edilmiş qayda Konqreslərin daxili reqlamentinə aid təkliflərə və əvvəllər irəli sürülmüş təkliflərin düzəlişlərinə tətbiq olunmur.

**Maddə 16**
**(Dəyişiklik edilmiş maddə 123)**
**Konqresin qəbul etdiyi qərarlarla əlaqədar yeni reqlamentlərin hazırlanmasına dair təkliflərin Poçt İstismarı Şurasına təqdim edilməsi proseduru**

1. Ümumdünya Poçt Konvensiyasının reqlamentləri və poçt ödəniş xidmətləri haqqında sazişlər Poçt İstismarı Şurası tərəfindən Konqresin qəbul etdiyi qərarlara uyğun tərtib olunmalıdır.

2. Konvensiyaya və ya poçt ödəniş xidmətləri haqqında sazişlərə təklif olunan dəyişikliklərin nəticəsi olan təkliflər Beynəlxalq Büroya aid olduqları Konqres üçün təkliflər ilə eyni vaxtda təqdim olunurlar. Onlar digər **üzv ölkələrin** dəstəyi olmadan, bir **üzv ölkə tərəfindən** təqdim oluna bilər. Belə təkliflər Konqresin başlanmasına ən azı bir ay qalmış bütün üzv ölkələrə göndərilir.

3. Konqresdən sonra altı ay ərzində yeni reqlamentləri hazırladıqda Poçt İstismarı Şurasında baxılması üçün reqlamentlərə dair digər təkliflər Konqresin başlanmasına ən azı iki ay qalmış Beynəlxalq Büroya təqdim edilir.

4. Konqresin qərarları nəticəsində reqlamentdə dəyişikliklərə dair **üzv ölkələr** tərəfindən baxılmaq üçün təqdim olunan təkliflər Poçt İstismarı Şurasının açılışına ən azı iki ay qalmış Beynəlxalq Büroya daxil olmalıdır. Belə təkliflər Poçt İstismarı Şurasının açılışına ən azı bir ay qalmış bütün üzv ölkələrə və **onların təyin olunmuş operatorlarına** göndərilir.

**Maddə 17**
**(Dəyişiklik edilmiş maddə 124)**
**İki konqres arasında təkliflərin təqdim edilməsi proseduru (Nizamnamə, m. 29, Ümumi reqlament, m. 116)**

1. Konvensiya və ya sazişlərə dair hər hansı **üzv ölkə** tərəfindən iki Konqres arasında irəli sürülən hər bir təklifin qəbul olunması üçün onu ən azı iki digər **üzv ölkə** dəstəkləməlidir. Beynəlxalq Büro təkliflərin dəstəklənməsi haqqında təkliflərlə bir vaxtda lazımi sayda ərizələr almazsa, belə təkliflərə baxılmır.

2. Bu təkliflər Beynəlxalq Büro vasitəsi ilə digər **üzv ölkələrə** göndərilir.

3. Reqlamentlərə dair təkliflərin dəstəyə ehtiyacı yoxdur, lakin o onların təcili zəruriliyini dəstəklədiyi təqdirdə, Poçt İstismarı Şurası tərəfindən nəzərə alınır.

## Maddə 18
## (Dəyişiklik edilmiş maddə 125)
## İki Konqres arasında təkliflərə baxılması (Nizamnamə, m. 29, Ümumi reqlament, m. 116,124)

1. Konvensiya, Sazişlər və onların yekun protokollarına dair istənilən təklifə aşağıdakı qayda tətbiq olunur: **üzv ölkə** Beynəlxalq Büroya təklif göndərdiyi təqdirdə, sonuncu onu öyrənmək üçün bütün **üzv ölkələrə** göndərir. Təklifin öyrənilməsi və müvafiq halda iradların Beynəlxalq Büroya göndərilməsi üçün onlara iki ay vaxt verilir. Düzəlişlərə yol verilmir. Bu iki ay başa çatdıqdan sonra Beynəlxalq Büro aldığı bütün iradları **üzv ölkələrə** göndərir və səs **hüququna malik olan hər bir üzv ölkəyə** təklifin lehinə və ya əleyhinə səs verməyi təklif edir. İki ay ərzində öz rəyini bildirməyən **üzv ölkələr** bitərəf sayılır. Yuxarıda qeyd olunan müddətlərin vaxtının hesablanması Beynəlxalq Büronun sirkulyarının buraxılışı tarixindən başlayır.

2. Reqlamentlərin dəyişdirilməsi üzrə təkliflərə Poçt İstismarı Şurası tərəfindən baxılır.

3. Təklif saziş və ya onun yekun protokoluna toxunduğu təqdirdə, yalnız bu sazişdə iştirak edən **üzv ölkələr** § 1-də qeyd olunan hərəkətlərdə iştirak edə bilərlər.

## Maddə 19
## (Dəyişiklik edilmiş maddə 126)
## İki Konqres arasında qəbul edilmiş qərarların nota ilə bildirilməsi (Nizamnamə, m. 29, Ümumi reqlament, m. 124,125)

1. Konvensiya, sazişlər və bu aktların yekun protokollarına edilən dəyişikliklər Beynəlxalq Büronun baş direktorunun nota ilə bildirməsi vasitəsi ilə rəsmiləşdirilir və üzv ölkələrin hökumətlərinin nəzərinə çatdırılır.

2. Poçt İstismarı Şurası tərəfindən reqlamentlərə və onların yekun protokollarına daxil edilən dəyişikliklər Beynəlxalq Büro tərəfindən **üzv ölkələrə və onların təyin olunmuş operatorlarına** bildirilir. Eyni qaydalar bu Konvensiyanın 36.3.2-ci maddəsində nəzərdə tutulmuş müddəalara və sazişlərin müvafiq müddəalarına da aiddir.

## Maddə 20
## (Dəyişiklik edilmiş maddə 128)
## İttifaq xərclərinin həddinin müəyyənləşdirilməsi və onların ödənilməsi (Nizamnamə, m. 21)

1. § 2 - 6-da qeyd olunanları nəzərə almaqla, **2009-cu il** və sonrakı illər üzrə İttifaq orqanlarının fəaliyyəti ilə bağlı illik xərclər aşağıdakı məbləğlərdən artıq olmamalıdır: **2009-cu və 2010-cu illər üzrə** - 37000000 **İsveçrə frankı, 2011-ci və 2012-ci illər üzrə 37235000 İsveçrə frankı**. Keçirilməsi **2012-ci ildə** nəzərdə tutulan Konqres başqa tarixə təyin edildiyi halda, **2012-ci il** üzrə əsas hədd sonrakı illərdə tətbiq olunur.

2. Növbəti Konqresin keçirilməsi ilə bağlı xərclər (Katibliyin başqa yerə köçməsi, nəqliyyat xərcləri, sinxron tərcümə üçün texniki avadanlığın quraşdırılması üzrə xərclər və

Konqres işlədiyi zaman sənədlərin nəşri üzrə və s. xərclər) 2900000 İsveçrə frankından artıq olmamalıdır.

3. Əməkhaqqı şkalalarının, təqaüd və ya müavinət qismində üzvlük haqlarının, o cümlədən Birləşmiş Millətlər Təşkilatının özünün Cenevrədə işləyən qulluqçuları üçün qəbul etdiyi vəzifə müavinətlərinin artırılmasını nəzərə almaq üçün İnzibati Şuraya § 1 və 2-də müəyyən edilmiş hədləri aşmağa icazə verilir.

4. İnzibati Şura həmçinin, istehlak qiymətlərinin İsveçrə göstəricisindən asılı olaraq, hər il heyətə aid olanlardan başqa, xərclər məbləğini düzəltmək hüququna malikdir.

5. § 1-də haşiyədən kənara çıxaraq, İnzibati Şura və ya son dərəcə zəruri olduğu təqdirdə baş direktor Beynəlxalq Büronun binasının təmiri üzrə əhəmiyyətli və nəzərdə tutulmayan işlərin həyata keçirilməsi üçün müəyyən edilmiş hədləri aşmağa icazə verə bilər, lakin məbləğ ildə 125000 İsveçrə frankından artıq olmamalıdır.

6. § 1 və 2-də nəzərdə tutulmuş kreditlər İttifaqın normal fəaliyyətinin təmin olunması üçün kifayət etmədikdə, bu hədlər yalnız İttifaqın üzv ölkələrinin əksəriyyəti bəyəndikdən sonra artırıla bilər. İstənilən məsləhətin tərkibində belə bir xahişi doğruldan faktların tam siyahısı olmalıdır.

7. İttifaqa qoşulmuş və ya İttifaqın üzvü kimi İttifaqa qəbul edilmiş, habelə İttifaqdan çıxan ölkələr daxil olduqları və ya çıxdıqları həyata keçirilən il üçün öz üzvlük haqlarını bütöv ilə görə ödəməlidirlər.

8. İnzibati Şuranın müəyyən etdiyi büdcə əsasında üzv ölkələr İttifaqa illik üzvlük haqlarının öz hissəsini əvvəlcədən ödəyirlər. Bu haqlar büdcənin aid olduğu maliyyə ilinin birinci günündən gec olmayaraq ödənilməlidir. Bu müddət bitdikdən sonra ödəniş üçün müəyyən edilmiş məbləğə **dördüncü aydan** başlayaraq **illik 6 faiz** hesabı ilə İttifaqın xeyrinə faizlər hesablanır.

9. Hər hansı üzv ölkənin İttifaqa ödəməli olduğu məcburi üzvlük haqları üzrə faizlər nəzərə alınmadan borcu, bu üzv ölkənin əvvəlki iki maliyyə ili ərzindəki üzvlük haqlarının cəminə bərabər və ya artıq olduqda, həmin üzv ölkə İnzibati Şuranın müəyyən etdiyi qaydaya uyğun olaraq, başqa ölkələrə olan bütün öz borc öhdəliklərini/borc tələblərini və ya onların hissəsini İttifaqa biryolluq keçə bilər. Borc tələblərinin/öhdəliklərinin keçilməsi şərtləri üzv ölkə, onun debitor/kreditorları və İttifaq arasında razılaşmaya uyğun müəyyənləşdirilir.

10. Hüquqi və ya hansısa digər səbəblərdən belə təhvili həyata keçirə bilməyən üzv ölkələr hesablar üzrə öz borclarının ödəmə planının imzalanmasını öhdəsinə götürürlər.

11. Xüsusi hallar istisna olmaqla, İttifaqa ödənilməli olan məcburi üzvlük haqları üzrə borcların ödənilməsi 10 ildən artıq müddət ərzində həyata keçirilə bilməz.

12. Müstəsna hallarda, İnzibati Şura üzv ölkəni o, öz borcunu tam həcmdə ödədiyi təqdirdə, tam və ya qismən hesablanmış faizlərdən azad edə bilər.

13. İnzibati Şuranın təsdiq etdiyi borcun ödənilməsi planı çərçivəsində üzv ölkə tam və ya qismən yığılmış və ya qalmış faizlərdən də azad oluna bilər, lakin azad olunma, ödəmə planına maksimum onillik müəyyən olunmuş müddətdə tam və dəqiq riayət olunduqda, mümkündür.

14. İttifaq xəzinəsinin kifayət etməyən pul vəsaitinin yerinin doldurulması üçün, məbləği İnzibati Şura tərəfindən müəyyənləşdirilən ehtiyat fond təsis olunmuşdur. İlk növbədə bu fonda büdcə qalıqları daxildir. O, həmçinin büdcənin tarazlaşmasına və ya üzv ölkələrin üzvlük haqlarının məbləğinin azaldılmasına xidmət göstərə bilər.

15. O ki qaldı xəzinənin müvəqqəti çatışmayan pul vəsaitlərinə, İsveçrə Konfederasiyasının hökuməti şərtlərə uyğun zəruri məbləğləri qısamüddətli avans şəklində verir. Şərtlər ümumi razılıqla müəyyənləşdirilməlidir. Bu hökumət xərc çəkmədən maliyyə hesablarının da aparılmasını, habelə Konqresin müəyyənləşdirdiyi kreditlər çərçivəsində Beynəlxalq Büronun hesabatlarını izləyir.

16. **§ 9 - 13-də adıçəkilən müddəalar analoji olaraq tərcümə üzrə xərclərə tətbiq edilir və bu xərclərin ödənilməsinə hesablar Beynəlxalq Büro tərəfindən linqvistik qruplara aid üzv ölkələrə təqdim edilir.**

**Maddə 21**
**(Dəyişiklik edilmiş maddə 130)**
**Üzvlük haqlarının sinifləri (Nizamnamə, m. 21, Ümumi reqlament, m. 115,128)**

1. Üzv ölkələr onların aid olduğu siniflərə uyğun İttifaq xərclərinin ödənilməsində iştirak edirlər. Bu aşağıdakı siniflərdir:

50 vahidlik sinif;
45 vahidlik sinif;
40 vahidlik sinif;
35 vahidlik sinif;
30 vahidlik sinif;
25 vahidlik sinif;
20 vahidlik sinif;
15 vahidlik sinif;
10 vahidlik sinif;
5 vahidlik sinif;
3 vahidlik sinif;
1 vahidlik sinif;
0,5 vahidlik sinif Birləşmiş Millətlər Təşkilatının ən az inkişaf etmiş ölkələri və İnzibati Şuranın qeyd etdiyi digər ölkələr üçün nəzərdə tutulmuşdur.

2. § 1-də sadalanan üzvlük haqları siniflərindən başqa, istənilən üzv ölkə ödəniş üçün **onun aid olduğu üzvlük haqqı** sinfini üstələyən üzvlük haqqı vahidlərinin sayını **iki Konqres arasındakı dövrə bərabər minimal müddət ərzində** seçə bilər. **Bu dəyişiklik haqqında Konqresdən gec olmayaraq xəbər verilir. İki Konqres arasındakı dövr bitdikdən sonra o çox vahid sayının ödənilməsini davam etmək qərarına gəlməsə, üzv ölkə avtomatik özünün əvvəlki üzvlük haqqı vahidinin sayına qayıdır. Əlavə üzvlük haqlarının ödənilməsi nəticəsində xərclər uyğun məbləğdə artır.**

3. Nizamnamənin 21.4-cü maddəsində nəzərdə tutulmuş prosedura uyğun üzv ölkələr İttifaqa qəbul olunan və ya qoşulan andan yuxarıda qeyd olunan üzvlük haqları siniflərindən birinə daxil edilir.

4. Gələcəkdə üzv ölkələr daha aşağı sinfə **qoşula bilərlər**, bir şərtlə ki, sinfin dəyişdirilməsi haqqında **xahiş** Beynəlxalq Büroya Konqresin başlanmasına ən azı iki ay qalmış **göndərilsin. Üzvlük haqqı sinfinin dəyişdirilməsi haqqında xahişə dair Konqres məcburi xarakter daşımayan tövsiyə verir. Üzv ölkə Konqresin tövsiyəsini yerinə yetirməsində sərbəstdir. Üzv ölkənin son qərarı Konqres başa çatana qədər**

**Beynəlxalq Büronun katibliyinə göndərilməlidir. Dəyişiklik haqqında bu xahiş** Konqresdə qəbul olunan maliyyə müddəaları qüvvəyə mindiyi andan işləyir. Özünün üzvlük haqları sinfini dəyişmək niyyəti haqqında müəyyən edilmiş müddətdə məlumat verməyən üzv ölkələr əvvəl aid olduğu üzvlük haqları sinfində qalır.

5. Üzv ölkələr eyni zamanda onların bir sinifdən çox aşağı sinfə keçirilməsini tələb edə bilməz.

6. Lakin beynəlxalq yardım tələb olunduğu təbii fəlakətlər kimi müstəsna hallarda üzv ölkə özünün üzvlük haqqının əvvəlcə seçilmiş sinfə uyğun saxlanılmasının mümkünsüzlüyünə dair dəlillər gətirərsə, İnzibati Şura iki Konqres arasında bir dəfə bu üzv ölkəyə müvəqqəti bir sinif aşağı keçməyə icazə verə bilər. Elə həmin vəziyyətlərdə İnzibati Şura zəif inkişaf etmiş ölkələr kateqoriyasına aid olan və artıq 1 vahidlik sinifdə yerləşən ölkələrə 0,5 vahidlik sinfə keçməyə də icazə verə bilər.

7. Sinfin müvəqqəti aşağı salınmasına § 6-ya əsasən İnzibati Şura tərəfindən maksimal ikiillik müddətə və ya növbəti Konqresə qədər sonuncu bu müddətin bitməsinə qədər keçirildiyi təqdirdə icazə verilə bilər. Müəyyən edilmiş müddət bitdikdən sonra maraqlı ölkə avtomatik özünün ilkin sinfinə köçürülür.

8. § 4 və 5-in müddəalarının tələblərindən kənara çıxmaqla, daha yüksək sinfə keçməyə dair heç bir məhdudiyyət mövcud deyildir.

**Maddə 22**
**(Dəyişiklik edilmiş maddə 131)**
**Beynəlxalq Büronun göndərdiyi materialların ödənişi (Ümumi reqlament, m. 118)**

Beynəlxalq Büro tərəfindən **üzv ölkələrə və onların təyin olunmuş operatorlarına** materialların ödənişli göndərilmə haqqı mümkün qədər qısa müddətdə, lakin bu büronun hesabları göndərdiyi aydan sonrakı ayın birinci günündən hesablayaraq altı aydan gec olmayaraq ödənilməlidir. Bu müddət bitdiyi gündən ödənilməli məbləğə İttifaqın xeyrinə illik 5 faiz hesablanır.

**Maddə 23**
**(Dəyişiklik edilmiş maddə 132)**
**Arbitrajın proseduru (Nizamnamə, m. 32)**

1. Arbitraj qərarının köməyi ilə tənzimlənməli olan fikir ayrılığı yarandıqda, işdə iştirak edən hər bir **üzv ölkə** mübahisədə bilavasitə marağı olmayan **üzv ölkəni** seçir. Bir neçə **üzv ölkə** birgə çıxış etdikdə, onlar bu müddəanın tətbiqi zamanı bir **ölkə** sayılır.

2. Mübahisədə iştirak edən **üzv ölkələrdən** biri arbitrajın təyin olunması haqqında təklifə, onun göndərildiyi tarixdən altı ay ərzində cavab vermədiyi təqdirdə, Beynəlxalq Büro ona müraciət edildikdə öz növbəsində **üzv ölkəyə** arbitrajı təyin etməyi təklif edir və ya özü bunu xidməti qaydada təyin edir.

3. Mübahisədə iştirak edən tərəflər yalnız bir arbitrin təyin olunması haqqında razılığa gələ bilərlər və bu arbitr Beynəlxalq Büro ola bilər.

4. Arbitrlərin qərarı səs çoxluğu ilə qəbul olunur.

5. Səslər bölündüyü təqdirdə, arbitrlər fikir ayrılığının həlli üçün, həmçinin mübahisə marağı olmayan digər **üzv ölkəni** seçir. Arbitrin seçilməsi haqqında məsələ

üzrə razılıq olmadıqda, bu **üzv ölkə** Beynəlxalq Büro tərəfindən arbitrlərin təklif etmədiyi **üzv ölkələrin** sırasından təyin edilir.

6. Söhbət sazişlərdən birinə dair fikir ayrılığı haqqında gedirsə, arbitrlər yalnız bu sazişdə iştirak edən **üzv ölkələrin** sıralarından təyin edilə bilər.

7. **Təyin olunmuş operatorlar arasında arbitraj qərarının köməyi ilə tənzimlənməyə məruz qalmış fikir ayrılığı yarandığı təqdirdə, marağı olan operatorlar İttifaqın üzvü olan öz ölkələrinə § 1 —** 6-da nəzərdə tutulmuş prosedura uyğun hərəkət etmək xahişi ilə müraciət edirlər.

**Maddə 24**
**(Dəyişiklik edilmiş maddə 135)**
**Ümumdünya Poçt İttifaqının ümumi reqlamentinin dəyişdirilməsi, qüvvəyə minməsi və fəaliyyət müddəti**

**Konqres tərəfindən irəli sürülmüş dəyişikliklər Əlavə protokolda təqdim olunmuşdur və əgər yalnız Konqres digər qərar qəbul etməzsə, həmin Konqresdə dəyişdirilmiş aktlarla eyni vaxtda onlar da qüvvəyə minirlər.**

Bu ümumi reqlament 2010-cu ilin 1 yanvar tarixindən qüvvəyə minir və qeyri-müəyyən müddətdə qüvvədə qalır.

**Maddə 25**
**Əlavə protokola qoşulma**

Bu protokolu imzalamamış üzv ölkələr istənilən vaxt ona qoşula bilərlər. Qoşulma haqqında sənədlər Beynəlxalq Büronun baş direktoruna göndərilməlidir. Baş direktor onlar haqqında üzv ölkələrin hökumətlərini məlumatlandırır.

**Maddə 26**
**Ümumi reqlamentə əlavə birinci protokolun qüvvəyə minməsi və fəaliyyət müddəti**

Bu əlavə protokol **2010-cu ilin 1 yanvar tarixindən** qüvvəyə minir və qeyri-müəyyən müddət ərzində qüvvədə qalır.

Təsdiq olaraq üzv ölkələrin hökumətlərinin səlahiyyətli nümayəndələri bu əlavə protokolu imzaladılar, bu əlavə protokol, əgər onun müddəaları ümumi reqlamentin öz mətninə daxil edilsəydi, o təqdirdə daşıyacağı həmin qüvvə və əhəmiyyətə malik olacaqdır, bir nüsxədə imzalanmış bu əlavə protokol saxlanılmaq üçün Beynəlxalq Büronun baş direktoruna veriləcəkdir. Bu nüsxənin surətləri Ümumdünya Poçt İttifaqının Beynəlxalq Bürosu tərəfindən bütün tərəflərə veriləcəkdir.

Bu əlavə protokol **2008-ci ilin 12 avqust tarixində Cenevrədə** imzalanmışdır.